# "Könüllümüz ol" layihəsinin iştirakçılarına sertifikatlar təqdim edilib



Sentyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində təcrübə keçmiş "Könüllümüz ol" layihəsinin iştirakçılarına sertifikatlar təqdim olunub.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin gənclərin inkişafına yönələn dövlət siyasətini daim diqqət mərkəzində saxlamasından, bu istiqamətdə respublikamızda görülən işlərdən bəhs edib. O bildirib ki, dövlətimizin başçısı tərəfindən dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin feal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub. Bu məqsədlə DQİDK tərəfindən 2 ay müddətində "Könüllü fəaliyyət" layihəsinin reallaşdırıldığını, layihə iştirakçılarının Dövlət Komitəsinin gündəlik iş prosesində, tədbirlərin və konfransların təşkilində yaxından iştirak etdiklərini və təcrübi biliklərə yiyələndiklərini vurğulayan Komitə sədri bu fəaliyyətin gənclərin gələcək iş həyatlarına önəmli və effektiv təsir edəcəyini deyib.



Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gənclərə təbriklərini çatdıran Mübariz Qurbanlı onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İki ay müddətində Dövlət Komitəsinin müxtəlif şöbələrində təcrübəli mütəxəssislərlə birbaşa çalışan, bu sahədə təcrübə toplayan könüllülər göstərilən etimada görə təşəkkürlərini bildiriblər.

Daha sonra könüllülərə sertifikatlar təqdim edilib.

# Etibar Nəcəfov: Azərbaycanda multikulturalizm siyasəti cəmiyyətdə sosial ədalətin və bərabərliyin bərqərar olmasının əsas amillərindəndir

Parisdə İnsan Hüquqları üzrə Milli Məsləhət Komissiyasının baş qərargahında Fransanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) 25-ci ildönümünə həsr olunan "Səmərəli bərabərliyə aparan yolda: irqçilik və dözümsüzlüyə yeni cavablara ehtiyac varmı?" mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, yüksək rütbəli hökumət rəsmilərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdikləri konfransda Avropa Şurasına üzv ölkələrdə irqçilik və dözümsüzlüyün artmasında mövcud və yeni çağırışların qarşısının alınması məsələləri müzakirə olunub.

Konfransda ölkəmizi Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. O, "25 ildən sonra reallığa baxış: biz bərabərlik uğrunda aparılan mübarizədə uduruq, yoxsa uduzuruq" adlı sessiyada çıxış edərək, Azərbaycanın timsalında inklüziv cəmiyyətin qurulmasına nail olmağın səmərəli vasitəsi kimi multikulturalizm siyasətinin əhəmiyyətindən danışıb.

E.Nəcəfov ölkəmizin təcrübəsinə əsaslanaraq bildirib ki, multikulturalizm siyasəti cəmiyyətdəki etnik, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinin ən uğurlu modelidir. Multikulturalizm siyasəti qloballaşma şəraitində geniş vüsət alan etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönəlib. Bu mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığı bir dövrdə olduqca önəmlidir. Belə bir şəraitdə insanların dünya görüşünün, fəaliyyətlərinin əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunması cəmiyyətin inklüzivliyini artıraraq onun daxilində inteqrasiya prosesləri üçün əlverişli şərait yaradır.

Şöbə müdiri multikulturalizmin Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətində özünü büruzə verdiyini qeyd edib. E.Nəcəfov bildirib ki, ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəsi və ölkədə yaşayan bütün xalqların və etnik qrupların etnik-mədəni dəyərlərinin qorunması multikulturalizm və daxili siyasətin tərkib hissəsi olmasının təzahürləridir. Qeyd edib ki, sosial ədalətə və bərabərliyə əsaslanan multikulturalizm siyasəti inklüziv cəmiyyətin formalaşmasına aparan əsas amillərdən biridir.

# Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının İdarə Heyətinin iclası olub



Sentyabrın 27-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının İdarə Heyətinin geniş iclası keçirilib.

İclasda avqustun 30-da YAP İcra Katibliyində keçirilən müşavirədə verilən tapşırıqların icra vəziyyəti müzakirə olunub, gündəlikdəki cari məsələlərə baxılıb.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev iclasda çıxış edərək gündəlikdə duran məsələlər haqqında məlumat verib. Ölkəmizin ictimai-siyasi həyatında baş verən yeniliklərdən, görülən işlərdən danışan Ş.Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli inkişafının uğurla davam etdirildiyini bildirib.

Rayon təşkilatının sədri çıxışında sosial şəbəkələrdə radikal müxalifətin şər-böhtan xarakterli çirkin təbliğatının qarşısının alınması, bu məqsədlə lazımi tədbirlərin görülməsi istiqamətində iş aparılmasının və bu məsələdə partiyanın, o cümlədən təşkilatın hər bir üzvünün yüksək fəallıq nümayiş etdirməsinin vacibliyini vurğulayıb.

Partiya sıralarının genişləndirilməsi istiqamətində görülən işlərdən danışan Ş.Hacıyev vurğulayıb ki, hazırda təşkilatın sıralarındakı ərazi ilk partiya təşkilatlarının sayı 126-ya çatıb. Partiya üzvlərinin sayının sürətlə artması YAP-ın ölkəmizin ictimai-siyasi həyatında çəkisinin və nüfuzunun güclənməsinin nəticəsidir. YAP Səbail rayon təşkilatı da ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir.

İclasda Azərbaycan Respublikası Dövlət Turizm Agentliyində "Turizm işçiləri" ərazi ilk partiya təşkilatının yaradılması barədə məsələyə baxılıb və müsbət qərar qəbul olunub.

Sonda gündəlikdə duran digər məsələlər müzakirə olunub, qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

Digər çıxış edənlər də YAP Səbail rayon təşkilatının fəaliyyətini yüksək qiymətləndiriblər. Çıxışlarda bu uğurların qarşıdakı dövrdə də davam etdirilməsi üçün rəy və təkliflər səsləndirilib.

**MÜŞFİQƏ**

# Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatında gənclərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatında gənclərlə görüş keçirilib. YAP Yevlax rayon təşkilatının bir qrup fəal gəncinin iştirak etdiyi görüşdə çıxış edən rayon təşkilatının sədri, Milli Məclisin üzvü İlham Məmmədov dövlətin gənclər siyasətindən, ölkə rəhbərinin gənclərə olan diqqət və qayğısından, bütün sahələr üzrə onlara göstərilən etimaddan danışıb.



Gəncləri fəal, dövlətçiliyimizin qorunmasında mübariz olmağa səsləyən millət vəkili onları ölkədəki ictimai-siyasi proseslərdə aktiv şəkildə iştirak etməyə çağırıb.

Sonda gəncləri maraqlandıran suallara cavab verilib, onların təklifləri dinlənilib.

# Hesablama Palatasında nəzarət tədbirləri üzrə auditor hesabatlarına dair müzakirələr aparılıb



Hesablama Palatasının kollegiya iclasında həyata keçirilmiş bir sıra nəzarət tədbirləri üzrə auditor hesabatları müzakirə olunub.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hesabatlar "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrası və dövlət əmlakından istifadəyə, Abşeron Rayon İcra Hakimiyyəti və tabeliyində olan idarə, müəssisə və təşkilatlara dövlət büdcəsinin "Mənzil və kommunal təsərrüfatı" bölməsindən, dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından ayrılmış vəsaitlərin istifadəsinə dair məsələləri əhatə edib.

Kollegiya iclasında hər bir nəzarət tədbiri üzrə auditor hesabatları barədə müvafiq qərar qəbul olunub.

Nəzarət tədbirlərinin nəticələri üzrə qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti qurumlara kollegiya qərarının və auditor hesabatının göndərilməsi, Milli Məclisə müvafiq məlumatın təqdim olunması qərara alınıb.

# "Ailə və cəmiyyət: ənənə və məsuliyyət"

*YAP İcra Katibliyində partiyanın Qadınlar Şurasının təşkilatçılığı ilə bu mövzuda konfrans keçirilib*







Sentyabrın 27-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Qadınlar Şurasının təşkilatçılığı ilə "Ailə və cəmiyyət: ənənə və məsuliyyət" mövzusunda konfrans keçirilib. Konfransda bir sıra siyasi partiyaların qadın təşkilatlarının nümayəndələri və qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak ediblər.

Tədbirdə giriş sözü ilə çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı bildirib ki, ailə xalqımızın əsas dəyərləri sırasındadır. Onun sözlərinə görə, bu gün ölkəmizdə ailə institutunun qorunması prioritet məsələlərdəndir. Tarixin hər bir mərhələsində ailə cəmiyyətin inkişafında mühüm rol oynayıb. Cəmiyyətin inkişafı ailənin rifahından, ailədaxili sağlam mənəvi mühitdən, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlər əsasında təşkilindən çox asılıdır. Buna görə də cəmiyyət həmişə ailənin möhkəm bünövrə əsasında qurulmasına, inkişafına çalışır. Azərbaycan ailəsi dünyada özünəməxsusluğu ilə seçilir. Bizim qədimdən gələn ailə modelimiz var.

Millət vəkili qeyd edib ki, ölkəmizdə gender bərabərliyi haqqında mükəmməl qanunvericilik bazası yaradılıb. Bununla belə, M.İbrahimqızı deyib ki, mütəmadi aparılan maarifləndirmə işlərinə baxmayaraq, hələ də məişət zorakılığı hallarına rast gəlinir. O, son vaxtlar AXCP rəhbərliyində təmsil olunan bir şəxsin öz həyat yoldaşına və qızına qarşı törətdiyi zorakılığın cəmiyyətdə ciddi etirazla qarşılandığını və pislənildiyini diqqətə çatdırıb. M.İbrahimqızı AXCP-nin bu hadisəyə görə Azərbaycan qadınlarından üzr istəməli olduğunu deyib.

Azəri Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı çıxışında bu hadisənin gündəmin əsas mövzularından olduğunu deyib. Onun sözlərinə görə, buna səbəb hakimiyyətə iddia edən bir siyasi partiyanın rəhbərliyində olmuş şəxsin öz ailə üzvlərinə qarşı zorakı hərəkətləridir. Bu səbəbdən də həmin hadisə cəmiyyətdə ciddi qınaq obyektinə çevrilib. Belə adamların ailəsində bu cür hadisələrin baş verməsi cəmiyyət üçün təhlükəlidir.

"Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı isə bildirib ki, bu məişət zorakılığını törədən adam partiya sıralarından istefa verdi: **"Amma mən bunu kağız üzərində istefa hesab edirəm. O, yenə öz fəaliyyətinə davam edəcək. O, xanımından da, uşaqlardan da, bütün Azərbaycan qadınlarından da üzr istəməlidir. Biz bu gün bəzi insanların qəddarlığını, onların söyüş söydüyünü müşahidə edirik. Bunların hamısının təməli ailədə qoyulur. Media da bu yöndə daha çox maarifləndirici iş aparmalıdır ki, ailələrdə zorakılıq, şiddət olmasın".**

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının nümayəndəsi Nəzakət Məmmədova çıxışında tədbirin çox önəmli, aktual məsələyə həsr olunduğunu bildirib. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasında bu tədbirin təşkil edilməsi göstərdi ki, partiya siyasi baxışlarına baxmayaraq, bütün vətəndaşlara eyni cür yanaşır, eyni münasibəti göstərir. N.Məmmədova qeyd edib ki, Avropa dəyərlərini, Avropaya inteqrasiyanı, demokratiya məsələlərini ön plana çəkən, fəaliyyətində əsas şüara çevirən bir siyasi partiyanın funksionerlərinin Avropa dəyərlərinə, ümumiyyətlə insan hüquqlarına zidd olan davranışları, heç şübhəsiz, tənqid olunmalıdır: **"Təqdirəlayiq hal odur ki, cəmiyyət bu hadisəyə çox adekvat reaksiya verdi. Bunu şiddətlə qınadı. Yəni cəmiyyətimiz bu cür məsələlərə biganə qalmır. Dövlət də kimliyindən asılı olmayaraq, bütün vətəndaşların, o cümlədən müxalif baxışlara malik vətəndaşların hüquqlarını qoruyur. Onların problemlərini ictimai müzakirəyə çıxarır. Bu da təqdirəlayiq hal kimi qeyd olunmalıdır".**

Nəzakət Məmmədova bildirib ki, qadın hüquqlarının, ümumiyyətlə ölkədə insan hüquqlarının qorunmasına diqqət dövlət siyasətinin qayəsini təşkil edir: **"Dövlət heç bir vətəndaşının problemlərini diqqətdən kənarda qoymur. Siyasi partiyaların, ictimai təşkilatların, vətəndaş cəmiyyəti institutlarının da bu cür həmrəylik nümayiş etdirməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir. Yəni cəmiyyət bu cür məsələlərdə həmrəylik göstərir və bunu şiddətlə qınayır".**

Tədbirdə digər çıxış edənlər də qeyd ediblər ki, Azərbaycan cəmiyyətində qadına hörmət təməl dəyərlərdən biridir. Qadınlara qarşı hər bir zorakılıq halı, o cümlədən məişət zorakılığı cəmiyyətimiz tərəfindən həmişə mənfi qarşılanıb. Çıxışlarda AXCP rəhbərliyində təmsil olunan bir şəxsin öz ailə üzvlərinə qarşı zorakılığı qətiyyətlə pislənilib.

Qeyd edək ki, sonda konfransda iştirak edən 8 siyasi partiyanın qadın təşkilatlarının rəhbərləri və 30 qeyri-hökumət təşkilatı sədrlərinin adından müraciət qəbul olunub. Müraciətdə bir daha AXCP rəhbərliyində təmsil olunmuş Fuad Qəhrəmanlının öz həyat yoldaşına və qızına qarşı zorakılıq hərəkətləri qətiyyətlə pislənilib. Müraciətdə həmçinin müəyyən insan hüquq müdafiə təşkilatlarının bu məsələdə susqunluğu da pislənilib.

Bu da qeyd olunur ki, həmin xoşagəlməz hadisə əvvəlcədən partiya rəhbərliyinə də məlum olub, bununla belə, zorakılığın qarşısını almaq üçün heç bir tədbir görülməyib. Ona görə də AXCP rəhbərliyi tam tərkibdə istefa verməli və Azərbaycan qadınlarından üzr istəməlidir.

Müraciətdə məlum zorakılıq hadisələri bir cinayət kimi qimətləndirilib və hüquq-mühafizə orqanlarına bu hadisənin ciddi şəkildə araşdırılması və qanun çərçivəsində müvafiq addımların atılması üçün çağırış edilib.

**Nardar BAYRAMLI**